# Təbib

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 13 (1674) 13 iyul 2018 - ci il Qiyməti 50 qəpik


# Azərbaycan və Türkiyə prezidentlərinin təkbətək görüşü



**Türkiyə Respublikasında keçirilən ilk prezident seçkilərindən sonra Rəcəb Tayyib Ərdoğan ilk səfərini qardaş Azərbaycana etmişdir.**

**İyulun 10-da rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə inam ifadə olundu.

Söhbət zamanı ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## BU SAYIMIZDA




«BMT-nin dayanıqlı inkişaf məqsədlərində səhiyyə islahatları» konfransı 2



Ağız və üz-çənə cərrahiyyəsi üzrə beynəlxalq elmi konfransın iştirakçıları rektorla görüşüblər 3







ATU - nun Tələbə Gənclər Təşkilatının illik hesabatı keçirilib 2



Yaddaşlara həkk olunan daha bir “Məzun Günü” 4-5




# «BMT-nin dayanıqlı inkişaf məqsədlərində səhiyyə islahatları» konfransı

**Son 25 ildə dünyada 5 yaşadək uşaq ölümü yarıya enib, qlobal səviyyədə ana ölümü 2 dəfə azalıb".**

**Bu fikirləri səhiyyə naziri Oqtay Şirəliyev Dünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Gebreyesusun iştirakı ilə «BMT-nin dayanıqlı inkişaf məqsədlərində səhiyyə islahatları» mövzusunda keçirilən yüksək səviyyəli iclasda çıxışı zamanı deyib. Nazir qeyd edib ki, Azərbaycanda da bu sahədə vəziyyət ötən illərə nisbətən xeyli yaxşılaşıb, ümumilikdə səhiyyənin bütün sahələrində inkişaf müşahidə edilir.**



Səhiyyə naziri bildirib ki, doktor Tedros Adhonomun təşəbbüsü ilə qəbul edilən qətnamələr, aparılan islahatlar hər bir insanın səhiyyə xidmətlərindən istifadə etmək imkanını artırmağa, səhiyyə sistemlərinin təkmilləşdirilməsinə, infeksion və qeyri-infeksion xəstəliklərlə mübarizəyə yönəldilib.

Daha sonra çıxış edən Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesus Azərbaycanda həyata keçirilən islahatlardan danışdıb və səhiyyə sahəsinə dəstəyini əsirgəməyəcəyini bildirib. Tədbirin sonunda Ümumdünya Səhiyyə Təşkilatının Baş Direktoru Dr. Tedros Adhanom Gebreyesusun ölkəmizə səfəri ilə əlaqədar olaraq Azərbaycan Respublikası Hökuməti ilə Ümumdünya Səhiyyə Təşkilatı arasında Birgə Bəyanat qəbul edildi.

Səhiyyə sahəsində əsaslı inkişafa həsr olunan konfransda bir sıra məsələlər müzakirə olunduğu konfransda Dayanıqlı İnkişaf Məqsədləri üzrə Azərbaycanın Milli Əlaqələndirmə Şurasının üzvləri, ölkənin tibb sahəsi üzrə mütəxəssisləri, beynəlxalq təşkilatların nümayəndələri qatılıblar. Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli də toplantının işində iştirak edib.

Qeyd edək ki, bu ilin oktyabrında Bakıda səhiyyə sahəsinin inkişafına dair konfrans keçiriləcək. Həmin konfransda "Dayanıqlı İnkişaf Məqsədlərinin milli səviyyədə inteqrasiyası və onların sürətləndirilməsinə dair Bakı Prinsipləri"nin qəbul ediləcəyi gözlənilir. Sənədin layihəsi Azərbaycan hökuməti və sənədin icrasına dəstək göstərəcək tərəfdaş BMT qurumları ilə müzakirə edilməkdədir.

# ATU - nun Tələbə Gənclər Təşkilatının illik hesabatı keçirilib

**Azərbaycan Tibb Universitetinin Tələbə Gənclər Təşkilatının (TGT) 2017/2018-ci tədris ili üçün hesabatı keçirildi. Tədbirdə çıxış edən TGT-nin sədri Tural Əzizov qurumun fəaliyyəti haqqında geniş məlumat verdi. O bildirdi ki, tələbə gənclər təşkilatlarının işi Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri, akademik Ramiz Mehdiyevin 2005-ci il 15 fevral tarixli 41 №-li Sərəncamına əsasən ölkədə gənclər və tələbələrlə işin təkmilləşdirilməsinə dair tədbirlər planının təsdiq olunması ilə başlanıb: "Tələbə gənclər təşkilatlarının fəaliyyətlərinin tənzimlənməsini təmin etmək məqsədilə, 2005-ci ilin may ayında Azərbaycan Gənclər və İdman Nazirliyi və Təhsil Nazirliyi "Ali və orta ixtisas təhsili müəssisələrində fəaliyyət göstərən Tələbə-Gənclər Təşkilatlarının Əsasnaməsi"ni təsdiq ediblər. Bu sərancama əsasən, 2006-cı ildə Azərbaycan Tibb Universitetində Tələbə Gənclər Təşkilatı yaradılıb və fəaliyyətə başlayıb".**



T.Əzizov qeyd etdi ki, TGT-lərin fəaliyyəti maliyyə dəstəyi və büdcəsi olmadan, könüllülük prinsiplərinə əsaslanır. ATU TGT-nin yaradılması ilə Azərbaycan Tibb Universitetinin tələbələri ölkənin ictimai-siyasi həyatında mühüm rola sahib olmağa başlayıb.

Qeyd edək ki, 2014-2018-ci illərdə ATU TGT-nin sədri vəzifəsini Tural Əzizov icra edib. Bu illər ərzində ATU TGT-nin strukturu və idarə heyəti formalaşdırılaraq fəaliyyətə başlayıb. T.Əzizov hər tədris ili üçün 10-a yaxın layihənin birbaşa təşkilatçısı və eyni zamanda ölkədə keçirilən gənclərlə bağlı onlarla tədbirlərin iştirakçisi olub. Onun sözlərinə görə, sentyabrın 15-də ATU TGT "Açıq qapı" günü təşkil edib və universitetə yeni qəbul olunan tələbələrə tədris binalarında hansı dərslərin keçirildiyi barədə məlumat verilib. Bundan başqa, tədris ili ərzində müxtəlif konfrans və sərgilər, intellektual oyunlar keçirilib, tələbələr üçün səyahət turları təşkil edilib. Bundan başqa, bir sıra maraqlı layihələr həyata keçirilib.

ATU-nun rektoru, professor Gəray Gəraybəyli tələbələri universitet həyatında daha aktiv şəkildə iştirak etməyə çağırdı. Rektorun sözlərinə görə, tələbələrin bu ali təhsil ocağında yüksək təhsil almaları və eləcə də, boş vaxtlarını asudə keçirmələri üçün bir sıra yeni islahatlar həyata keçirilib: "Məsələn, universitet kitabxanasının iş saatı axşam 22:00-dək uzadılıb, yataqxana təmir olunub və s. Bütün bunlar tələbələrin rahatlığı üçündür. Amma tələbələr də istər elm, istər təhsil, istərsə asudə vaxtın təşkili, görüşlərin, konsertlərin keçirilməsi və digər məsələlərdə daha aktiv olmalı, universitet həyatına laqeyd qalmamalıdırlar".



Rektor G.Gəraybəyli bu il ATU-nun tədris proqramında aparılan ciddi dəyişikliklərdən də söz açdı. Rektor tələbələrin şikayətinin nəzərə alınaraq, bəzi kafedraların ixtisar olunduğunu xatırlatdı: "Biz həmçinin kurasiyanı ləğv etdik, indi proqramlar üzərində ciddi işlər gedir. Birinci addım elektron jurnal, ikinci addım kurasiyaların ləğvi oldu. Bütün bunlar universitetdə şəffaflığın artırılması üçündür".

Rektor həmçinin görüşdə tələbələri maraqlandıran məsələlərdən danışdı. O qeyd etdi ki, tələbələrin yay istirahətlərini səmərəli keçirmələri üçün lazımi işlər görülüb. Bu il ik dəfə olaraq ATU-nun "Çinar" rəqs ansamblı, "Şəfa" xalq çalğı alətləri ansamblının və voleybol komandasının üzvlərinin universitetin "Təbib" istirahət düşərgəsində bir həftəlik pulsuz istirahəti təmin olunacaq.

Daha sonra tədbirdə çıxış edən ATU-nun Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımov tələbələri təbrik etdi: "Universitetimizin tələbə təşkilatlarına tədbirlərdə birbirinizə dəstək olmağı tövsiyə edirəm. Tələbə Elmi Cəmiyyəti, Tələbə Gənclər Təşkilatı və Tələbə Həmkarlar Komitəsini bir görmək istəyirəm. Çünki siz bizim gələcəyimizsiniz".

ATU TGT-nin sədr müavini Rauf Vəliyev də çıxış edərək, universitet rəhbərliyinə təşəkkürünü bildirdi.

Sonda 2017/2018-ci tədris ili ərzində universitetin ictimai-siyasi həyatında fəallıq göstərən tələbələr mükafatlandırıldılar.

# YAY İMTAHAN SESSİYASI BAŞA ÇATDI

**İyunun 1-dən başlayan yaz semestrinin yay imtahan sessiyası iyulun 9-da başa çatıb. Virtual Test Mərkəzinin direktoru, dosent Şahin Bayramovun bildirdiyinə görə, imtahan sessiyası dövründə 47 min imtahan olub. Heç bir qayda pozuntusuna rast gəlinməyib: "Tələbələr imtahanlarını normal qaydada verə biliblər.**

Sevindirici haldır ki, son illər test sistemində aparılan təkmilləşdirmələr öz bəhrəsini verib. Belə ki, bu sisteminin tətbiqi tələbələrin kitabları tam şəkildə mənimsəməsini ortaya qoya bilib. Artıq ortada gözlədiyimiz nəticələr var. Tələbələrin bilik səviyyəsi qaneedicidir."

VTM-in direktoru bu imtahanların daha keyfiyyətli şəkildə təşkili üçün nəzarətçilərin göstərdiyi xidmətə də toxundu. Bildirdi ki, nəzarətçilər hansısa vasitənin zallara daşınmasının qarşısını alıblar. Onlar metalaxtaran cihazın köməyi ilə buna nail ola biliblər. Bu da imtahan prosesinə müsbət təsirini göstərib.

Qeyd edək ki, bu il universitetin 1007 məzunu olub. Onlardan 85-i xarici vətəndaşdır, 88-i isə universiteti fərqlənmə ilə bitiribdir.



# Ağız və üz-çənə cərrahiyyəsi üzrə beynəlxalq elmi konfransın iştirakçıları rektorla görüşüblər

**İyunun 29-da Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında Ağız və üz-çənə cərrahiyyəsi üzrə beynəlxalq elmi konfrans işə başlayıb. Toplantı üçün dünyanın müxtəlif ölkələrindən gələn mütəxəssislər, alimlərin bir qismi ATU-nun rektoru, professor Gəray Gəraybəyli ilə görüşüblər.**

Görüş zamanı rektor G.Gəraybəyli dünyada tibb elmində öz sözünü demiş alimlərin Tibb Universitetinin qonağı olduğundan dərin məmnunluq duyduğunu bildirdi. O, ATU-nun mütəmadi olaraq beynəlxalq toplantılara, tibbi simpoziumlara ev sahibliyi etdiyini, bu tədbirlərdə müxtəlif aktual mövzular üzrə fikir mübadiləsi aparıldığını deyən rektor ağız və üz-çənə cərrahiyyəsi üzrə beynəlxalq elmi konfransın da uğurla keçəcəyindən əminliyini bildirdi.







Sonra ATU-nun ağız və üz-çənə cərrahiyyəsi kafedrasının müdiri, professor Çingiz Rəhimov iki gün davam edən konfransın proqramı haqqında geniş məlumat verdi. Bildirdi ki, tədbirdə Azərbaycan Ağız və üz-çənə Cərrahları Cəmiyyətinin təqdimatı da keçiriləcək: "Bu qurum Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin verdiyi Şəhdətnaməyə əsasən 29 sentyabr 2017-ci ildən etibarən ictimai birlik qismində rəsmi fəaliyyət göstərir. Respublikanın bu sahədə çalışan ən qabaqcıl mütəxəssislərini birləşdirən cəmiyyət ilk olaraq, üzərinə götürdüyü vəzifələri, fəaliyyət planını, əməkdaşlıq imkanlarını və bu sahənin inkişaf perspektivlərinə baxışları dünya mütəxəssislərilə birlikdə müzakirə etmək niyyətindədir".

Ç.Rəhimov həmçinin konfransın yekununda bu sahədə fəaliyyət göstərən müxtəlif qurumlarla Azərbaycan Ağız və üz-çənə Cərrahları Cəmiyyəti arasında gələcək əməkdaşlıq haqqında memorandum imzalanmasının planlaşdırıldığını da qeyd etdi.

Qeyd edək ki, konfransın birinci günündə Elmi Forumda bu sahədə ən yeni texnologiyaların tətbiqinə dair müzakirə və təcrübə mübadiləsi aparılıb. Konfransda dünya şöhrətli məşhur cərrahlar - İbrahim Yıldırım (Türkiyə), Edqar Bimer (Almaniya), Aleksandr Nerobeyev (Rusiya), SM Balaşi (Hindistan), Pietro Bormioli (İtaliya) və digər iştrakçıların məruzələri səsləndirilib.

Həmçinin, bir neçə qabaqcıl ölkənin Ağız və üz-çənə Cərrahları Cəmiyyətlərinin Prezidentləri (İtaliya, İngiltərə, Almaniya, Türkiyə, İran, Russiya, Hindistan, Ukrayna, Gürcüstan, Qazaxıstan, İsrail) və tanınmış mütəxəssisləri də toplantıya qatılıblar. Konfransda Avropa Ağız və üz-çənə Cərrahları Cəmiyyətinin nümayəndələri də iştirak edib.

* * *

İyunun 30-da konfransın bağlanış mərasimində çıxış edən ATU-nun elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov son illər bir sıra sahə və ixtisaslar üzrə yeni cəmiyyət və assosiasiyaların yaradıldığını bildirdi. O qeyd etdi ki, onlardan biri də Ədliyyə Nazirliyinin verdiyi şəhadətnaməyə əsasən ötən il sentyabrın 29-dan ictimai birlik qismində rəsmi fəaliyyət göstərən Azərbaycan Ağız və üz-çənə Cərrahları





Cəmiyyətidir: "İki gündür davam edən konfrans çərçivəsində həm də cəmiyyətin təqdimat mərasimi keçirilir. Cəmiyyətin əsas məqsədi dünyanın müxtəlif ölkələrindən olan həmkarlarla əməkdaşlıq etmək və bu sahənin inkişaf perspektivlərinə baxışlarını dünya mütəxəssisləri ilə birlikdə müzakirə etməkdir".

ATU-nun ağız və üz-çənə cərrahiyyəsi kafedrasının müdiri, professor Çingiz Rəhimov bildirdi ki, ölkədə ağız və üz-çənə cərrahiyyəsi ilə əlaqədar ilk namizədlik dissertasiyası 1936-cı ildə müdafiə olunub: "20 il keçəndən sonra ağız və üz-çənə cərrahiyyəsi ilə əlaqədar kafedra yaradılıb. 1961-ci ildə 60 çarpayıdan ibarət I ixtisaslaşmış şöbə, 1974-cü ilsə isə 20 çarpayıdan ibarət II ixtisaslaşmış şöbə fəaliyyətə başlayıb. 1977-ci ildə 25 çarpayıdan ibarət uşaq şöbəsi açılıb. 2007-ci ildə ağız və üz-çənə cərrahiyyəsi sahəsində ilk dərslik çap olunub".

Professor Çingiz Rəhimov ölkəmizdə ağız və üz-çənə cərrahiyyəsinin tarixi, inkişaf yolları, bu günkü vəziyyəti haqqında da məlumat verdi: "Hazırda təbabətin bu sahəsində 6 elmlər doktoru, 25-dən çox elmlər namizədi, 250-dən çox mütəxəssis fəaliyyət göstərir. Onlar dünyanın müxtəlif ölkələrində keçirilən forum və elmi-praktik seminarlara dəvət alıb və həmin tədbirlərdə məruzələrlə çıxış ediblər".

Tədbirin sonunda konfrans iştirakçıları ATU-nun fəxri diplomu ilə təltif olunublar.

# Yaddaşlara həkk olunan

**"Məzun Günü" təhsil ocaqlarında artıq bir ənənəyə çevrilən vida günü, sabaha çağırış, məsuliyyət anıdır. Xüsusən də ali təhsil müəssisələrinin məzunları üçün. Çünki onları qarşıda müstəqil həyatın qayğılı günləri gözləyir...**




Bu münasibətlə iyunun 28-də ATU-nun ənənəvi olaraq keçirilən növbəti "Məzun Günü" paytaxtımızda öz möhtəşəmliyi və gözəlliyi ilə seçilən "Bulvar Hotel"də təntənəli şəkildə qeyd olundu. Neçə illərdən bəri formalaşmış müsbət imicini, nüfuzunu qoruyub saxlayan Azərbaycan Tibb Universitetinin təşkil etdiyi bu tədirdə bir qələbəlik var idi. Bura təkcə məzunlar deyil, valideynlər də gəlmişdilər. Məzunlar universiteti uğurla başa vurduqlarına görə sevinir, təəssüratlarını ətrafındakılarla bölüşürdülər. O məzunlar ki, bu illər ərzində qayğıları çəkən, elmin əsaslarını zərrə-zərrə öyrədən, insanların sağlamlığının qorunması naminə ömrünü şam kimi əridən müəllimlərindən ayrılır, tələbəlik illərini arxada qoyub onu kövrək, həzin xatirəyə çevirirlər.














İlk öncə Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli çıxış edərək həkim adını qazanan gəncləri təbrik etdi, məzunları və tədbir iştirakçılarını salamladı.

Rektor çıxışında qeyd etdi ki, Ulu Öndər Heydər Əliyevin sərəncamı ilə universitetimizdə hərbi tibb fakültəsi fəaliyyətə başlayıb: "Fakültənin məzunları peşə borclarını həmişə uğurla yerinə yetiriblər. Ənənəmizə sadiq qalaraq, bu il də 120 məzunu hərbi həkim və feldşer kimi Vətənə xidmətə göndəririk.

Əziz həkimlər, əziz valideynlər! Biz hesab edirik ki, bu gün müstəqil həyata yola saldığımız məzunlarımız gələcəkdə həkim adını həmişə yüksək tutacaq, universitetimizin onlara çəkdiyi zəhməti özlərinin işləri və gündəlik fəaliyyətləri ilə doğruldacaqlar. Bilirsiniz ki, səhiyyəmiz çox sürətlə inkişaf edir. Bugünkü məzunlarımızın çalışacağı xəstəxanalar, klinikalar, diaqnostik mərkəzlərin imkanları son dərəcə genişdir, əminəm ki, məzunlarımız bu klinikalarda uğurla fəaliyyət göstərəcəklər".

Bundan sonra universitetin tədris şöbəsinin müdiri Samir Cavadov 2018-ci ilin məzunlarına həkim adının verilməsi haqqında rektorun müvafiq əmrini oxudu və universiteti bitirən məzunların statistikasını açıqladı. O, bildirib ki, bu il ATU-nu 1007 nəfər bitirib. Belə ki, I müalicə-profilaktika fakültəsindən 302, II müalicə-profilaktika fakültəsindən 307, stomatologiya fakültəsindən 133, tibbi profilaktika fakültəsindən 74, əczaçılıq fakültəsindən 71 nəfər məzun olub. Məzunlardan 75-i hərbi həkim, 45-i hərbi feldşerdir, 85 nəfər xarici ölkə vətəndaşdır. Məzunlardan 88-i universiteti fərqlənmə diplomu ilə bitirib. Qeyd edilib ki, təhsil ocağında 26 ölkədən olan tələbələr də təhsil alırlar. Tədris zamanı tətbiq edilən yeniliklər, praktik məşğələlərə üstünlük verilməsi və qabaqcıl dünya ölkələrinin tibbi təhsil ocaqları ilə əməkdaşlığın ildən–ilə genişləndirilməsi məzunların daha yaxşı mütəxəssis kimi yetişməsinə səbəb olur.

Mərasimdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra məzunlar təntənəli şəkildə Hippokrat andı içdilər, müqəddəs həkimlik peşəsinin öhdəsindən layiqincə gələcəklərini və onun şərəfini daim uca tutacaqlarını söylədilər.

G.Gəraybəyli bu il universiteti fərqlənmə ilə bitirən məzunlardan bir qrupuna diplomlar təqdim etdi. Daha sonra rektor universitetin bir neçə əməkdaşını da işlərindəki uğurlara görə mükafatlandırdı.

Sonra söz Səhiyyə Nazirliyinin Aparat rəhbəri Zəkiyyə Mustafayevaya verildi: "Çox hörmətli professor-müəllim heyəti, hörmətli qonaqlar və bu günün əziz məzunları! Mən də sizin hər birinizi bu gözəl əlamətdar gün münasibəti ilə təbrik edirəm. Hər il olduğu kimi bu il də Azərbaycan Tibb Universitetində ənənəvi olaraq "Məzun Günü" təntənəli şəkildə qeyd edilir, müstəqil həkim or-




ürəkdən təbrik edirəm.

Toplantıda çıxış edən histologiya, embriologiya və sitologiya kafedrasının müdiri, professor Eldar Qasımov: "Əziz məzunlar, uzun illər gözləmisiniz ki, 6 illik təhsil müddəti bitsin və siz müstəqil həyata qədəm qoyasınız.

Son olaraq onu deyirəm ki, siz universitetlə heç zaman əlaqəni kəsməyin. Sizi yüksək ixtisaslı mütəxəssis və həkim kimi yetişdirmiş müəllimlərinizlə daim əlaqə saxlayın. Hər hansı çətinliklə qarşılaşsanız, universitet kollektivi sizlərə hər zaman kömək əlini uzadacaq. Bir daha sizi təbrik edirəm! Fəaliyyətiniz uğurlu və xeyirli olsun! Gələcəkdə xalqımızın sağlamlığı keşiyində uğurla fəaliyyət göstərməyinizi arzulayır və sizi bu yaddaqalan gün münasibəti ilə ürəkdən təbrik edirəm".

Universitetin keçmiş məzunu Abbas Bağırov valideynlər adından məzunları təbrik edərək onun təhsil aldığı dövrlə indiki dövr arasında müsbət mənada böyük fərq olduğunu diqqətə çatdırdı. Son illər təhsildə xeyli nailiyyət və uğurların nəzərə çarpdığını diqqətə çatdıran A. Bağırov buna görə ölkə başçısı İlham Əliyevə, Səhiyyə naziri Oqtay Şirəliyevə və tələbələrə yaradılan yüksək şəraitə görə ATU-nun rektoru Gəray Gəraybəyliyə dərin minnətdarlığını bildirdi. O, çıxışının sonunda təhsillərini başa vuraraq həkim adı qazanan gəncləri bir daha təbrik edərək onlara xalqımızın sağlamlığı keşiyində ləyaqətlə dayanmağı arzuladı.

Sonra ATU-nun məzunları sırasında olan Prezident təqaüdçüsü Xatun

# daha bir "Məzun Günü"

dusu cəmiyyətimiz və xalqımıza xidmət üçün təhvil verilir. Burada dövlətimizin inkişafı, tibb sahəsində olan və kadr potensialının hazırlanması istiqamətində qazanılan nailiyyətlər xatırlanır və sadalanır. Bu da olduqca xoş haldır və sanki bir hesabat xarakteri daşıyır. Biz burada Azərbaycan Tibb Universitetinin yeni kadr hazırlığının, gənclərə verilən tövsiyələrin şahidi oluruq ki, bu da ümumi işimizin xeyrinədir.

Respublikamızda səhiyyə sahəsində çox böyük inkişaf var. Təkcə Bakıda deyil, respublikamızın müxtəlif bölgələrində, ən ucqar kəndlərdə belə yeni xəstəxanalar və poliklinikalar inşa edilərək xalqın istifadəsinə verilir. Əvvəllər mövcud olanlar yüksək səviyyədə təmir olunur və maddi-texni-




Məmmədova ənənəvi olaraq estafeti I kurs tələbəsinə verərək, ona həkim libasını və səhiyyəyə aid rəmzi atributları təqdim etdi.

Tədbirdə çıxış edən məzunlar da ATU-nun rəhbərliyinə və eləcə də doğma universitetin professor-müəllim heyətinə minnətdarlıqlarını bildirdilər, həkim adının müqəddəsliyini qoruyacaqlarına, onlara göstərilən etimadı doğruldacaqlarına söz verdilər.

Sonda tələbələrin ifasında Azərbaycan Tibb Universitetinin himni səsləndirildikdən sonra "Məzun Günü" bədii hissəyə keçid aldı. Öz bənzərsiz çıxışları ilə hər kəsin rəğbətini və dərin sevgisini qazanan ATU-nun "Çinar" rəqs qrupunun çıxışları böyük coşqu ilə izlənildi. Respublikamızın tanın-





ki bazası yaxşılaşdırılır. Artıq tibb sahəsi, səhiyyə sahəsi irəlidə gedən bir sahəyə çevrilib. Mən məzunlara arzu edərdim ki, həkimlik peşəsinə uyğun olaraq humanist olsunlar. Heç zaman cəmiyyətin təbəqələri arasında ayrı-seçkilik etməsinlər və ictimai-siyasi proseslərdə həmişə dövlətimizin mənafeyini qorusunlar. Hörmətli Prezidentimizin apardığı daxili və xarici siyasətdə qazanılan uğurları təbliğ etsin və dəstəkləsinlər. Gənc nəslə əsl vətənpərvərlik nümunəsi göstərsinlər. Sizin müəllimlər qarşısında imtahanınız bitsə də, həyat qarşısında yeni imtahanlarınız başlayır. Arzu edirəm ki, həyat məktəbinin layiqli məzunları, Azərbaycanın layiqli övladları, layiqli həkimləri olasınız. Bir daha sizi bu yaddaqalan gün münasibəti ilə



mış incəsənət ustalarının çıxışları ilə davam edən tədbirdə tələbələrimizin də bir-birindən rənigarəng mahnıları dinlənildi.

Beləliklə, heç vaxt unudulmayan, məzunların yaddaşına əbədi həkk olacaq və daim dönə-dönə xatırlanacaq daha bir "Məzun Günü" zamanın yaddaşına yazıldı, həzin bir nəğmə kimi dodaqlarda qaldı.

... Bəli, bu andan sonra məzunların müstəqil həyatı başlayacaq, günlər birbirini qovduqca tələbəlik illəri yada düşəcək, ürəklərinin telləri sızıldayacaq. Bu günün xatirələri onların əmək fəaliyyətlərinə də bir şirinlik qatacaqdır.

**Mənsur ƏLƏKBƏRLİ**

# "MƏZUN GÜNÜ" HƏRBİ TİBB FAKÜLTƏSİNDƏ DƏ QEYD OLUNUB

**Mayın 28-də Hərbi tibb fakültəsinin tədris binasında "Məzun Günü" təntənəli şəkildə qeyd olunub. Tədbirə başlamamışdan öncə ümummili lider Heydər Əliyevin və Vətənimizin azadlığı uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**



Mayın 28-də Hərbi tibb fakültəsinin tədris binasında "Məzun Günü" təntənəli şəkildə qeyd olunub. Tədbirə başlamamışdan öncə ümummili lider Heydər Əliyevin və Vətənimizin azadlığı uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət Himnimiz səslənəndən sonra, çıxış üçün söz Hərbi tibb fakültəsinin rəisi, t/x polkovniki Çingiz Əlləzova verilib. Ç.Əlləzov universiteti başa vuran hərbi həkim və feldşerləri təbrik edib. Onlara torpaqlarımızın ərazi bütövlüyü uğrunda xidmət edən əsgər və zabitlərimizin sağlamlıqları keşiyində layiqincə durmağı, hər birinə öhdələrinə düşən vəzifələri layiqincə yerinə yetirməyi tövsiyə edibdir: "Bu il universiteti 75 hərbi həkim, 45 hərbi feldşer bitirir. Sizlərdən təyinatla Silahlı Qüvvətlərdə xidmətdə olanlar olacaq. Hesab edirəm ki, öyrəndiyiniz bilik və bacarıqları xidməti dövrünüzdə lazımi səviyyədə tətbiq edəcək, əlinzdən gələni əsirgəməyəcəksiniz. Sizə işlərinizdə və xidmətinizdə uğurlar arzulayıram!"

Sonra təbrik üçün söz Silahlı Qüvvələrin Baş Qərərgah rəisinin müavini, Döyüş Hazırlığı və Hərbi Təhsil İdarəsinin rəisi, general-leytenant Nizam Osmanova verilib. Natiq ulu öndər Heydər Əliyevin hələ sovetlər zamanında Azərbaycana rəhbərlik etdiyi dövrlərdə və müstəqillik qazandığımız ərəfədə ölkəmizə qazandırdığı uğurlardan, hərb sahəsinin inkişafına verdiyi töhfələrdən söhbət açıb. Sovetlər dönəmində general Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılması istiqamətində ulu öndərin atdığı addımları və bu liseyin ordu quruculuğuna verdiyi töhfələri xüsusilə qeyd edib: "Hərbi həkim kadrların yetişdirilməsi də ölkənin hərbi qüdrətini artıran əsas amillərdən biri hesab olunur. Bu istiqamətdə də ulu öndər tərəfindən lazımi addımlar atılıb və bu gün hərbi uğurlar cənab Prezident İlham Əliyev tərəfindən davam etdirilir".

General-leytenan N.Osmanov həmçinin hərbi kadrların hazırlanması üçün dövlət başçısı, Ali Baş Komandan İlham Əliyev tərəfindən hər cür yüksək şəraitin yaradıldığını və bu məsələnin daim onun diqqət mərkəzində olduğunu vurğulayıb.

Məzunlara xeyir-dua verərək, onlara müvəffəqiyyətlər arzulayıb.

Sonda general tərəfindən fərqlənən məzunlara Fəxri Fərmanlar və mükafatlar təqdim olunub.

Məzunlardan Fəxri Əmrahlı, Murad Bayramov, Əyalət Mustafayev yüksək nizam-intizam göstərdiyinə və təhsildə fərqləndiyinə görə mükafatlandırılıblar.

**Qabil ABDULLAYEV**

# Azərbaycan Respublikasının Niderland Krallığındakı səfirliyindən təşəkkür məktubu

**Azərbaycan Tibb Universitetinin beynəlxalq nüfuzunun artması əməkdaşlarımızın xarici ölkələrə üşgüzar səfərlərinə də xüsusi stimul verir.**



Möhtərəm prezidentimiz İlham Əliyevin sərəncamı ilə 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilməsi bu cür səfərləri daha da intensivləşdirir. Təsadüfi deyil ki, bu səfərlərin təfərrüatları haqqında redaksiyamıza da vaxtaşırı məktublar daxil olur.

Bü günlərdə Azərbaycan Respublikasının Niderland Krallığındakı səfirliyindən də universitetimizin rektoru, professor Gəray Gəraybəylinin adına bir təşəkkür məktubu ünvanlanıb. Səfirliyin müvəqqəti işlər vəkili Cəlal Mirzəyevin imzaladığı məktubda deyilir: "Hörmətli rektor! Azərbaycan Respublikasının Niderland Krallığındakı Səfirliyinin dəstəyi və "Odlar yurdu Azərbaycan-Niderland Cəmiyyətinin" təşkilatçılığı ilə Haaqa şəhərində yerləşən Səfirliyimizdə möhtəşəm bir tədbir keçirilmişdir. "Odlar yurdu Azərbaycan-Niderland Cəmiyyətinin" sədri, vokal ifaçısı Firəngiz Bağırovanın dəvətilə Azərbaycan Tibb Universitetinin baş müəllimi Aidə Bəndəliyeva və onun qızı gənc pianoçu, respublika və beynəlxalq müsabiqələr laureatı Ayan Məmmədli tədbirimizə qatılmışlar. A.Bəndəliyevanın Azərbaycanın dəyərli ziyalısı kimi tədbirdə fəal iştirak etməsi, hollandlar və burada yaşayan həmvətənlərimizlə sıx yaradıcı işgüzar münasibətlər yaratması, onun övladı A.Məmmədlinin yüksək peşəkarlıqla göstərdiyi ifaçılıq mədəniyyəti, milli və xarici musiqiləri uğurla ifa etmək qabiliyyəti hər kəsin böyük rəğbətinə səbəb olmuşdur".

Məktub müəllifi müstəqil Azərbaycanımızı ölkə sərhədlərindən uzaqlarda, xarici dövlətlərin nümayəndələri qarşısında öz istedadı, savadı və yüksək vətənpərvərliyi ilə layiqincə təmsil etməyə qadir olan ziyalılarımızın və gənclərimizin formalaşmasında Tibb Universitetinin fəaliyyətini yüksək qiymətləndirir: "Biz Sizə və Sizin simanızda universitetinizin əməkdaşlarına öz təşəkkürümüzü bildirir və müstəqil Azərbaycanın daim çiçəklənərək həm ölkə daxilində, həm də onun hüdudlarından kənarlarda nüfuzunun artması üçün çalışan bütün soydaşlarımıza uğurlar arzu edirik!"

# "Nefrologiyanın müasir və aktual problemləri"nə həsr olunmuş elmi-praktik konfrans

**Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında "Nefrologiyanın müasir və aktual problemləri"nə həsr olunmuş elmi-praktik konfrans keçirilib.**



Konfransda Ümumdünya Nefrologiya Cəmiyyətinin xoş məramlı səfiri, Başkənt Universitetinin tibb fakültəsinin nefrologiya klinikasının rəhbəri, professor Siren Sezer iştirak edib.

ATU-nun elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov iştirakçıları universitetin rektoru, professor Gəray Gəraybəylinin adından salamlayaraq, konfransın işinə uğurlar arzulayıb.

R.Bəylərov uşaqlarda xroniki qlomerulonefritin müalicəsində effektiv dərman vasitəsi haqqında danışıb və bunun tətbiqi zamanı əldə edilən müsbət nəticələri konfrans iştirakçılarının diqqətinə çatdırıb.

O, bu dərman preparatının klinikada geniş tətbiqinin müsbət nəticələrə gətirib çıxaracağını vurğulayıb.

Daha sonra çıxış edən konfransın təşkilat komitəsinin sədri, professor Mehman Ağayev konfransın təşkilində göstərdikləri dəstəyə görə Səhiyyə Nazirliyinə və ATU-nun rektoru, professor Gəray Gəraybəyliyə iştirakçılar adından minnətdarlığını bildirib.

M.Ağayev böyrəklərin xroniki xəstəliklərində kalsi-fosfor mübadiləsi pozulmaları nəticəsində sümüklərdə baş verən ağır dəyişikliklər, onların vaxtında qarşısının alınması, müalicənin proqnozunun yaxşılaşacağına səbəb olacağını qeyd edib.

Konfransın davamında Ankara Universitetinin tibb fakültəsinin professoru Siren Sezer böyrək amiloidozunun diaqnostikası və müalicəsində əldə edilmiş yeniliklərdən danışıb.

Sonda böyrək arterial hipertenziyanın klassikasiyası və müalicəsində son dəyişikliklər ətrafında dəyirmi masada geniş müzakirələr aparılıb.

Konfransda akkreditasiyadan keçmiş iştirakçılara sertifikatlar, məruzəçilərə isə təqdim etdikləri məruzələrə əsasən kredit ballar (sertifikatlar) verilib.

Qeyd edək ki, konfrans Səhiyyə Nazirliyi tərəfindən akkreditasiya olunub.

# ATU-nun əməkdaşları "Sağlam təhsil - sağlam millət" layihəsi çərçivəsində mükafatlandırılıb

**Təhsil Nazirliyində «Sağlam təhsil - sağlam millət" layihəsi çərçivəsində bir qrup əməkdaşın mükafatlandırılması mərasimi keçirilib.**




Layihə rəhbəri Şamil Süleymanlı tədbirin əhəmiyyətindən söz açıb, bu istiqamətdə görülən işləri vurğulayıb.

Tədbirdə bildirilib ki, hazırda Bakı və Sumqayıt şəhərlərində 38 məktəbin 168 sinfində "Sağlam təhsil - sağlam millət" layihəsi tətbiq edilir. İl ərzində 3 dəfə olmaqla "Sağlam təhsil" siniflərinin müəllimlərinə tibbi-gigiyenik, pedaqoji, psixoloji, sosioloji təlimlər keçirilib. Şagirdlərin sosiallaşma bacarıqlarının artırılması məqsədi ilə müxtəlif tədbirlər təşkil edilib. Eyni zamanda, Təhsil İnstitutunun və Azərbaycan Tibb Universitetinin mütəxəssis heyəti tərəfindən "Sağlam təhsil" siniflərində monitorinqlər aparılıb.

Tədbirdə çıxış edən ATU-nun Uşaq və yeniyetmələrin sağlamlığı, əmək sağlamlığı kafedrasının müdiri, layihənin eksperti dosent Şəhla Balayeva universitet əməkdaşlarının layihədə gördükləri işlərdən söz açıb. O, "Sağlam təhsil" texnologiyalarının təhsilalanların sağlamlığına müsbət təsiri haqqında məlumat verib və ATU olaraq gələcəkdə də daima lazımi dəstəyi göstərməyə hazır olduqlarını bildirib.

Təhsil nazirinin müavini Firudin Qurbanov layihə iştirakçılarını təbrik edib. O bildirib ki, layihənin məqsədi fiziki-psixi və mənəvi sağlam, yüksək təlim və yaradıcılıq nailiyyətlərinə malik Azərbaycan vətəndaşının, qlobal dünyaya hazır olan nəslin yetişdirilməsidir. Təhsil Nazirliyinin müvafiq layihə çərçivəsində əhəmiyyətli işlər həyata keçirdiyindən danışan nazir müavini qeyd edib ki, tədris prosesində akademik biliklərin əldə edilməsi heç bir şəkildə gənc nəslin, şagirdlərin sağlamlığı hesabına baş verməməlidir. Bu isə layihənin kökündə duran əsas məramdır.

Firudin Qurbanov bildirib ki, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda təhsilin keyfiyyətinə və əhatəliliyinə qoyulan yeni tələblər təhsil sistemi anlayışına baxışı da yeniləyib. Dəyişən dünyada tədris prosesi də dəyişilməli və inkişaf etməlidir. "Sağlam təhsil - sağlam millət" layihəsi də gənc nəslin bu dəyişikliklərə daha hazırlıqlı olması zərurətindən irəli gəlib.

Tədbirin sonunda digər iştirakçılarla yanaşı tibbi-gigiyena blokunun nümayəndələrinə - professor Hüseyn Qabulov, dosentlər Şəhla Balayeva, Nigar Süleymanzadə, Sədaqət Həsənova, Zöhrə İsmayılova, baş laborant Nərminə Məmmədzadə və doktorant Qoşqar Orucova "Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təşəkkürnaməsi" təqdim edilib.

**ATU-nun mətbuat xidməti**

# "Horizon 2020" Qrant proqramı üzrə seminar

**İyulun 6-da ATU-nun Tədris Cərrahiyyə Klinikasında Avropa İttifaqının elmi tədqiqatların və texnologiyaların inkişafı üzrə səkkizinci çərçivə "HORİZON 2020" qrant proqramı üzrə seminar keçirildi.**



Seminarı giriş sözü ilə açan universitetin elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov Avropa İttifaqının elmi tədqiqatların və texnologiyaların inkişafı üzrə 8-ci çərçivə "HORİZON 2020" proqramının Avropa İttifaqı tarixində ən böyük qrant proqramı olduğunu bildirdi. Prorektor 2014-2020-ci illəri əhatə edən və büdcəsi 80 milyard avro olan bu qrant proqramından Azərbaycan alimlərinin kifayət qədər bəhrələnmədiyini təəssüflə qeyd etdi: "Ona görə də bugünkü seminarımızın əsas məqsədi dissertant və doktorantların, kafedra müdirlərinin, eləcə də kafedralarda elmə cavabdeh olan nümayəndələrin diqqətini bu layihələrə yönəltməkdir. Gələcəkdə proqramlarımızı, elmi işlərimizi, elmi istiqamətlərimizi elə qurmalıyıq ki, bu qrantlardan yetərincə bəhrələnə bilək".



Hər bir ali təhsil müəssisəsinin fəaliyyətini qiymətləndirərkən onun qrant layihələrində iştirakının və impakt faktorlu jurnallarda çap olunan elmi məqalələrin sayının mütləq nəzərə alındığını vurğulayan R.Bəylərov diqqətə çatdırdı ki, iki il öncə Azərbaycan Tibb Universitetindən impakt faktorlu jurnallarda çap olunan məqalələrin sayı 33 idisə, 2016-cı ildə 65-ə çatdı: "Sonuncu ilin hesabatına görə isə belə məqalələrin sayı 107-dir. Ancaq bizim potensialımızla müqayisədə bu göstərici yenə də çox azdır. Bütün bunları nəzərə alaraq qeyd etmək istərdim ki, bu qrant layihələrində iştirak bizim üçün çox vacibdir".

Bundan sonra AMEA-nın İdarəetmə Sistemləri İnstitutunun xarici əlaqələr və innovasiya şöbəsinin rəhbəri, "HORİZON 2020" proqramının qanunvericilik və maliyyə aspekti üzrə milli təmsilçisi (Legal&Financial NCP HORIZON 2020) Tofiq Babayev Avropa Komissiyasının elmi tədqiqat və innovasiya çərçivə proqramı haqqında, o cümlədən AB-nin Çərçivə Proqramlarının tarixi, yeni strategiyası və "HORİZON 2020" Çərçivə proqramı barədə geniş məlumat verdi. O, Azərbaycan alimlərinin Avropa Birliyinin ən böyük qrant proqramı olan elmi tədqiqatların texnoloji inkişafı və innovasiya proqramında iştirak edə bilməsinin reallığını xüsusi qeyd etdi.

Azərbaycan–Avropa İttifaqı nümayəndəliyinin əməliyyat şöbəsinin beynəlxalq yardım və əməkdaşlıq üzrə məsul şəxsi Pərviz Bağırov, proqramın milli koordinatorları İlham Hümbətov və Zaur Həsənov da çıxış edərək bu proqramı müxtəlif ölkələrdən olan tədqiqatçılar arasında əməkdaşlığı təşviq etmək üçün əvəzsiz proqram kimi dəyərləndirdilər.

"HORİZON 2020" proqramının səhiyyə, demoqrafik dəyişikliklər və rifah üzrə milli koordinatoru, dosent Rəhimə Qabulova 6 aydır ki, reallaşdırmağa çalışdıqları seminarın baş tutmasından məmnunluğunu söylədi. Bütün iştirakçılara təşəkkürünü bildirərək "Səhiyyə, demoqrafik dəyişikliklər və rifah" bölməsinin hansı problemləri həll etmək üçün yaradılmasına da aydınlıq gətirdi: "İlk növbədə sağlamlıq, yaşlanma və xəstəlik anlayışları, sağlam həyat tərzinin effektiv təbliği, xəstəliklərin profilaktikası, diaqnostikanın təkmilləşdirilməsi məsələləri diqqət mərkəzindədir. Eyni zamanda innovativ müalicələr, texnologiyalar, aktiv və sağlam uzunömürlülüyün təmin olunması, vətəndaşlar üçün davamlı tibbi yardım - yeni bizim işlədiyimiz sahələrin hər biri burada öz əksini tapmışdır. Bu proqram hər birinizin maraq dairənizdədir".

İştirakçıları proqramın informasiya mənbələri ilə də tanış edən R.Qabulova layihənin 4 ilinin artıq başa çatdığını vurğulayaraq aktual çağırışlara qoşulmaqla qrant alma imkanları, bununla əlaqədar gözlənilən qaydalar və şərtlər barədə ətraflı məlumat verdi.

Seminarın sonunda ATU-nun elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov bütün tədbir iştirakçılarına, qonaqlara, təşkilatçılara bir daha təşəkkürünü bildirdi, özünə güvənərək bu vacib layihədə iştirak edən maraqlı ideya müəlliflərinin uğur qazanacağına əminliyini vurğuladı.

# NƏCİBƏ ƏHMƏD QIZI VƏLİYEVA

**Uzun müddət Latın dili kafedrasında baş müəllim işləmiş Nəcibə Əhməd qızı Vəliyeva dünyasını dəyişib.**



Nəcibə xanım 1939-cu ildə Ağstafa rayonunda ziyalı ailəsində anadan olmuşdur. Orta təhsilini həmin rayonda alan Nəcibə xanım Azərbaycan Xarici Dillər İnstitutunu 1962-ci ildə fərqlənmə diplomu ilə bitirmişdir. Bundan sonra əmək fəaliyyətini orta məktəbdə davam etdirmişdir. 1962-1964-cü illərdə orta məktəbdə müəllim vəzifəsində çalışmışdır. 1964-cü ildən Azərbaycan Dövlət Tibb İnstitutunun latın dili kafedrasında müəllim, sonralar isə baş müəllim vəzifəsində çalışmışdır.

İşlədiyi illər ərzində Universitetin ictimai həyatında da Nəcibə xanım fəal iştirak etmişdir. Belə ki, 1980-2010-cu illərdə universitetin həmkarlar təşkilatının büro üzvü kimi fəaliyyət göstərmişdir.

Nəcibə xanım 40-dan artıq elmi məqalənin, o cümlədən əczaçılıq fakültəsi üçün yazılan "Latın dili və əczaçılıq terminləri" dərs vəsaitinin və "Kliniki terminlər lüğəti"nin müəlliflərindən biridir.

Nəcibə xanım bir insan kimi o qədər həssas, o qədər səmimi idi ki, onu bir dəfə görmək bu gözəl xanımı xoş duyğularla daim xatırlamağa kifayət edərdi. Fədakar ana, sevimli nənə, qayğıkeş və həssas müəllim ömrü yaşamış Nəcibə xınım əzizlərinin və onu tanıyanların, xüsusilə tələbələrinin qəlbində əbədi yaşayacaqdır.

***Allah rəhmət eləsin, qəbri nurla dolsun!!***

*Latın dili kafedrasının əməkdaşları*

# Qubada əhali arasında tibbi maarifləndirmə aksiyası keçirilib

**20-23 iyun tarixində Quba rayonunda Azərbaycan Tibb Universiteti ilə İctimai Səhiyyə və İslahatlar Mərkəzinin birgə layihəsi çərçivəsində "Sağlam həyat tərzi Azərbaycan xalqının seçimidir" adlı aksiya keçirilib. Aksiya Azərbaycan Prezidentinin imzaladığı "Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair 2015-2020-ci illər Strategiyası» əsasında icra olunub.**




ATU-nun İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının əməkdaşları-kafedranın baş müəllimi, tibb üzrə fəlsəfə doktoru Yaqut Hacıyeva və kafedranın doktorantı İlahə İslamzadə aksiya çərçivəsində Quba rayon Mərkəzi xəstəxanasında xəstələrlə, həmçinin Quba regional "ASAN xidmət" mərkəzində əhali ilə görüşüblər. Görüş zamanı maarifləndirici söhbətlər aparılıb, anket-sorğu keçirilərək vətəndaşları maraqlandıran suallar cavablandırılıb və onlar xəstəliklərlə mübarizə istiqamətində məlumatlandırılıblar. Quba sakinlərinə izahedici-maarifləndirici bukletlər paylanılıb.

Yaqut Hacıyevanın sözlərinə görə, qeyri-infeksion xəstəliklərlə mübarizədə əhalinin maarifləndirilməsinin və bu sahədə motivasiyanın artırılmasının əhəmiyyəti çox böyükdür: "Eləcə də əhainin tibbi aktivliyi - vaxtında həkim müayinəsindən keçmək, laborator analizlərin verilməsi xəstəliklərin vaxtında aşkar olunmasına imkan verir və müalicəni asanlaşdırır. Belə maarifləndirici tədbirlərin aparılması artıq silsilə xarakter daşıyır və bundan sonra da respublikanın digər regionlarında davam etdiriləcək".

Qeyd edək ki, dünyada vaxtsız ölüm hallarının 2/3 hissəsi qeyri-infeksion xəstəliklərin payına düşür. Eləcə də Azərbaycanda il ərzində baş verən ölüm hallarının 73%-dən çoxu bu xəstəliklərin hesabına baş verir. Bu xəstəliklərə qarşı mübarizə onların risk amillərinə qarşı mübarizə fonunda getməlidir. Bu sahədə isə maarifləndirmənin təşkili böyük önəm daşıyır.

**ATU-nun mətbuat xidməti**

# "Ginekologiyada yeniliklər" adlı simpozium

**Azərbaycan Tibb Assosiasiyasının (ATA) Ginekologiya Dərnəyi tərəfindən Tədris-Cərrahiyyə Klinikada "Ginekologiyada yeniliklər" adlı birinci simpozium keçirilib. Tədbirin açılışında çıxış edən ATU-nun TCK-nın direktoru, professor Surxay Hadıyev simpoziumun işinə uğurlar diləyib. O bildirib ki, belə tədbirlərin keçirilməsi çox önəmlidir: "Bu tədbir həm müasir tibbdə olan yeniliklər, həm də fikir mübadiləsinin aparılması baxımından çox zəruridir. Bizim klinikamızda müxtəlif şöbələrin ayrı-ayrılıqda simpoziumlar, tədbirlər keçirməsi olduqca sevindirici haldır".**



Simpoziumda hamiləliyə əngəl olan qlobal xəstəliklər müzakirə olunub. Klinikanın aparıcı mütəxəssisləri - professor İslam Mahalov və II mama-ginekologiyanın şöbəsinin müdiri Turab Canbaxışov endometriozis və uşaqlığın mioması haqqında geniş məlumat veriblər. Qeyd olunub ki, hamilə qala bilməyən qadınların 30-40%-də məhz bu xəstəliklər aşkar olunur.

Tədbirdə patologiyaların erkən diaqnostikası, müasir müalicə üsulları və sonrakı dövrdə profilaktik tədbirlər müzakirə edilib və iştirakçılar tərəfindən böyük maraq doğurub. Belə elmi və maarifləndirici tədbirlərin hər ay keçirilməsi nəzərdə tutulur.

Qeyd edək ki, tədbir Səhiyyə Nazirliyinin Elmi Tibbi Şurası tərəfindən akkreditasiyadan keçib və simpoziuma 3 davamlı tibbi təhsil kredit vahidi verilib.

# Xarkov Tibb Universitetinin tələbələri ATU-nun Tədris Terapevtik Klinikasında təcrübə keçirlər

**Azərbaycan Tibb Universiteti tələbələrin yalnız nəzəri biliklər almasına deyil, həm də bu biliklərin praktikada möhkəmləndirilməsi işinə böyük önəm verir. Bu baxımdan, ATU-nun nəzdində olan klinikalar tələbələr üçün böyük imkanlar yaradır. Sevindirici haldır ki, artıq xarici ölkələrdən tələbələr də ATU klinikalarında təcrübə keçmək üçün müraciət edirlər.**

Hazırda Ukraynanın Xarkov Tibb Universitetinin tələbələri Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında istehsalat təcrübəsi keçirlər. Ukraynalı tələbələr 29 iyun 2018-ci il tarixindən etibarən "Terapiya və pediatriya" ixtisasları üzrə təcrübə proqramında iştirak edirlər. Proqram ATU-nun Tədris Terapevtik Klinikasının direktoru Samir Allahverdiyev, klinikanın həkimləri Gülarə Axunbəyli və Səidə Xanməmmədovanın rəhbərliyi altında keçirilir.

Proqram zamanı Ukraynanın Xarkov Tibb Universitetinin tələbələri Klinikada tələbə və həkimlər üçün yaradılan şərait, müəssisənin texniki təchizatı ilə tanış olublar. Onlara məlumat verilib ki, Tədris Terapevtik Klinika 2007-ci ildə prezidentin fərmanına əsasən yaradılıb. Hazırda klinikada yüksək profilli həkimlər tibbi xidmət göstərir və bu müəssisə modern tibbi avadanlıqla təchiz olunub.







Klinikanın direktoru S.Allahverdiyevin sözlərinə görə, klinik fənlərin tədrisi ilə məşğul olan kafedraların vahid mərkəzdə cəmləşdirilməsi tələbələrin praktika keçməsi işini asanlaşdırıb. Həmçinin, gələcək həkimlərin elmi tədqiqat işlərinin aparılması üçün əlavə imkanlar yaradılıb. Bütün bunlar tələbələrin aldıqları nəzəri bilikləri dərinləşdirməsi və sonrakı əmək fəaliyyətində istifadəsini təmin etməsinə imkan verir.

Qonaqlar ATU-nun Tədris Terapevtik Klinikasında tələbələr üçün yaradılan şəraitdən məmnun qaldıqlarını, təcrübənin uğurla yekunlaşacağından əminliklərini bildiriblər. Xarkov Tibb Universiteti tələbələrinin istehsalat təcrübəsi iyulun 13-dək davam edəcək.

Qeyd edək ki, istehsalat təcrübəsinin əsas vəzifələri tələbələri ixtisasın profilindən və xüsusiyyətindən asılı olaraq, yeni texnologiyalarla, iş üsulları ilə, elmi-tədqiqatlarla və digər məsələlərlə tanış etmək, tələbələrdə işgüzarlıq, təşkilatçılıq və kommunikativ vərdişləri aşılamaqdan ibarətdir.

# Normal çəkinin hesablanması qaydası

**Artıq çəki son illər hər kəsin, xüsusilə də xanımların ən çox mübarizə apardığı məsələlərdəndir. Arıqlamaq üçün ən müxtəlif üsullar olsa da, sağlam arıqlamaq daha düzgündür.**



AZƏRTAC xəbər verir ki, Azərbaycan Tibb Universitetinin qidalanma və kommunal gigiyena kafedrasının müdiri İbrahim Əhmədovun dediyinə görə, artıq çəkinin hesablanması üçün bir sıra üsullar var: "Əgər boy 1,70 santimetr, çəki 70 kiloqramdırsa, düzgün çəkini hesablamaq üçün 70 rəqəmi 1,7-nin kvadratına bölünür, alınan rəqəm çəki normasını müəyyən edir. Həmin nisbət 18-dən 25-dək alınanda bunu normal bədən çəkisi hesab etmək olar. Alınan rəqəm 25-29,9 arasında olduqda bu, izafi çəki hesab edilir. Eləcə də 30-34,9 arası birinci, 35-39,9 arası ikinci, 40-dan yuxarı üçüncü dərəcəli piylənmə sayılır. Bədən kütlə indeksinin 18,5-dən aşağı olması çəki azlığı əlamətidir. Kişilərlə eyni boyda olan qadınların çəkisinin 5-8 kiloqram az olması normal hal sayılır".

Kafedra müdiri onu da deyib ki, 60 yaşdan sonra hər on ildən bir çəkinin 5 kiloqram artması lazımdır ki, piy qatı dəri boşalmalarını doldursun.

## Etibarsız sayılır

II müalicə-profilaktika fakültəsinin IV kurs, 260-cı qrup tələbəsi Tahirov Emil Valeh oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin V kurs, 79[b] qrup tələbəsi Muhammed Said Pakir İbrahim Halil oğlunun adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

Hüseynova Sona Sadıq qızına 1986-cı ildə Azərbaycan Tibb Universiteti tərəfindən terapevt ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

Azərbaycan dili kafedrasının əməkdaşları kafedranın müdiri, dosent

**Akif Miriyevin**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

# ATU-nun tələbələri beynəlxalq sammitdə uğur qazandılar

**3-6 iyul 2018-ci il tarixlərində Krasnodar Vilayətinin Soçi şəhərində "Yaxşıların seçimi. İrəli getmək zamanıdır" adlı II Beynəlxalq Ali Məktəblərarası GxP-sammiti keçirilib. Bu beynəlxalq tədbirdə Azərbaycan Tibb Universitetinin əczaçılıq fakültəsinin tələbələri də iştirak ediblər.**



ATU-nun tələbələrindən ibarət nümayəndə heyətinin rəhbəri - farmakoqnoziya kafedrasının dosenti, əczaçılıq fakültəsinin TEC-nin rəhbəri Nərgiz Məmmədovanın sözlərinə görə, sammit Rusiyanın Sənaye və Ticarət Nazirliyi, Dərman vasitələri və müvafiq təcrübələr üzrə Dövlət İnstitutu, Krasnodar Vilayətinin rəhbərliyinin dəstəyi ilə "Putivodnaya zvezda" ("Yolgöstərən ulduz") xeyriyyə fondu tərəfindən təşkil olunub.

Beynəlxalq ali məktəblərarası sammitin keçirilməsinin əsas məqsədi əczaçılıq sənayesini öz ixtisas yolu kimi seçmiş istedadlı gənclər arasında kadr ehtiyatının aşkarlanması, müxtəlif ölkələr arasında bu sahədə əməkdaşlığın möhkəmləndirilməsinə zəmin yaradılmasından ibarət olub.

Sammitin işində iştirak edən ATU tələbələri – Qəmər Məmmədbəyli, Rufana Usubova, Firuzə Məmmədova, aspirantlar Emilya Balayeva və Aytəkin Qəribli əczaçılığın müxtəlif sahələri üzrə öz elmi işlərini təqdim ediblər. Müsabiqəyə Rusiya, Qırğızıstan, Tacikistan, Özbəkistan, Belarus, Hindistan və digər ölkələrdən 500 elmi iş göndərilib. Onlardan seçilən 150 iş arasında ATU tələbə və aspirantlarının da işləri olub.

Müsabiqənin ikinci mərhələsində ATU nümayəndələri Soçinin "Roza Xutor" istirahət məkanına yola düşdülər. Sammitin açılış mərasimində dosent Nərgiz Məmmədova tədbir iştirakçılarına ATU-nun rektoru, professor Gəray Gəraybəlinin təbrik məktubunu oxuyub. Həmçinin, üzərində ATU-nun adı olan "yarpağı" "Bilik Ağacı"nın üzərindən asıb.

Müsabiqənin ikinci mərhələsində test ilə situasiyaya uyğun məsələlərin həllindən və « Qış yaxınlaşır» («Зима близко») adlı işgüzar oyundan ibarət olub. Ümumilikdə, ATU-nun tələbələri universiteti layiqincə təmsil ediblər. Belə ki, ATU-nun tələbələri işgüzar oyunda 3-cü yeri tutublar. III kurs 845-ci qrupun tələbəsi Rufana Usubova isə uğurlu nəticələrinə görə "R-FARM" şirkəti tərəfindən xüsusi hədiyyə ilə təltif olunub. Ümumilikdə, ATU-dan olan iştirakçıların hamısına diplomlar təqdim olunub. ATU nümayəndə heyətinin üzvləri Beynəlxalq Əczaçı Tələbələr Federasiyasına (İPSF) üzvlük, müxtəlif beynəlxalq konfranslarda iştirakla bağlı dəvət alıblar.

# Qoxunun intensivliyini müəyyənləşdirən qurğu buraxılıb

**Yaponiyanın "Tanita" şirkəti qoxunun intensivliyini müəyyənləşdirməyə imkan verən "ES-100" cihazını təqdim edib.**



AZƏRTAC "Popmech" resursuna istinadən bildirir ki, cihazdan istifadə etmək üçün onu işə salmaq və sonsoru bədənin lazımi hissəsinə yaxınlaşdırmaq tələb olunur. On saniyədən sonra ekranda onballıq şkala üzrə qiymətləndirmə görünməyə başlayır. Göstərici 5 bal səviyyəsində olan zaman istehsalçı təmiz geyim geyinməyi və duş qəbul etməyi tövsiyə edir.

"Tanita ES-100" qurğusu həm tər, həm də parfümeriya iyinə reaksiya verir.

Hazırda yalnız Yaponiyada satışa çıxarılan "ES-100" cihazı ciddi geyim tərzinə üstünlük verən şirkətlərdə çalışan kişilər üçün nəzərdə tutulub.

Təlimata görə, sensordan 2 min dəfə istifadə etmək mümkündür.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98[c]
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 1800